BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Sosial-siyasi elmlər seriyası 2022

UOT 1(09)

MAHMUD KAŞQARİNİN İRSİ – TÜRKDİLLİ XALQLARIN TARİXİ-FƏLSƏFİ VƏ MƏDƏNİ ABİDƏSİ KİMİ

R.N.ASLANOVA
Bakı Dövlət Universiteti
rabiyyat.aslan@mail.ru

Türkdilli ölkələrin milli intibahını və mənəvi həyatının yeniləşməsi prosesini müasir dövrdə yeni məna və mahiyyət kəsb edən tarixi-fəlsəfi və mədəni təhlil olmadan obyektiv dəyərləndirmək qeyri-mümkündür.

Bu xüsusilə, xalqın ideya-mənəvi irsinin əsas sütununu təşkil edən, əsrlərdən süzülüb gələn fəlsəfi fikr tarixinə də aiddir. Türk xalqlarının qədim zamanlardan dövrümüzə qədər gələn tarixi-fəlsəfi fikrinə maraq təkcə konkret elmi-nəzəri şərtlərlə deyil, həm də qlobal sivilizasiyanın və milli dövlətlərin inkişaf çağırışı ilə müəyyən olunur. Mahmud Kaşqarinin zəngin tarixi-fəlsəfi irsinin çoxşaxəli yaradıcılığının araşdırılması bu baxımdan böyük əhəmiyyət kəsb edir.

Açar sözlər: Mahmud Kaşğari, tarixi-fəlsəfi baxışları, mənəvi-etik irs, "Divan-Lüğət ət-Türk", türk mədəni-fəlsəfi abidəsi

Giriş

Ümumdünya fəlsəfi-nəzəri irsinin tərkibində dərin zəngliyi, dəyər və potensialı hələlik sona qədər dərk edilməyən, nəinki sistemli və ardıcıl tədqiq ənənəsinə, hətta hələlik öyrənilməsinin ümumi konsepsiyasına malik olmadığımız türk dünyasının fəlsəfi-tarixi irsinin obyektiv tədqiqi günün ən aktual problemlərindəndir. Hazırkı reallıqda türk dünyası özünün malik olduğu möhtəşəm fəlsəfi irsi zəmin götürərək, yeni ideya-nəzəri paradiqmalar irəli sürməyə təşəbbüs göstərməli, türk xalqlarının bəşər sivilizasiyasının inkişafında, dünya ictimai-siyasi modelinin və ədəbi-bədii, fəlsəfi fikrinin formalaşmasında oynadığı rol elmi ictimaiyyətə təqdim olunmalıdır.

Mədəni-mənəvi sərvətin yaranmasında, qorunaraq gələcəyə ötürülməsində mühüm rol oynayan, varlığı və fəaliyyəti ilə təkcə mənsub olduğu xalqa, millətə deyil, bəşəriyyətə qürur hissi yaşadan mütəfəkkirlər içərisində türk alimlərinin, mütəfəkkirlərinin tarixdə yerinə və roluna yeni baxış sərgilənməlidir.

F.Nitsşenin söylədiyi kimi, dövrün çağırışlarına adekvat olaraq bütün dəyərlərə yenidən baxılmalıdır.Vaxtı ilə İ.Höte yazırdı ki, "Bizim dövrümüzdə

heç bir şübhə yoxdur ki, zaman-zaman ümumdünya tarixini yenidən yazmaq lazım gələcək. Bu zərurət ondan qaynaqlanır ki, yeni-yeni hadisələr meydana gəlir, yeni dövrün qabaqcıl insanlarının yeni düşüncələri yaranır və o tamamilə fərqli baxışla keçmişi dəyərləndirə bilir."

Hər bir xalq onun varlığını müəyyən edən ictimai,siyasi, sosial-mədəni cəhətlərə malik mədəni-tarixi tip kimi tarix səhnəsinə daxil olur. Bir xalqın kimliyini dərk etmək, onun tarixi prosesdə yerini və rolunu dəyərləndirmək üçün, bu xalqın keçdiyi tarixi yolu izləmək, qarşılaşdığı maneələri dəf etmək qətiyyətinə obyektiv qiymət vermək, daxili mənəvi müqavimət qüvvəsinin mənbəyini anlamaq lazımdır.

Eyni zamanda xalqın dünyagörüşünü, dünyaduyumunu, özünütəsdiq imkanlarını, dini inanclar sisteminin xarakterini, mədəniyyətini, cəmiyyətdaxili münasibətlərin davamı olaraq yaratdıqları dövlətlərin, imperiyaların təbiətini, hüquqi-siyasi təsisatların məzmun və mahiyyətini nəzərə almaq çox önəmlidir. Yalnız bu şərtlər əsasında konkret xalq, etnos haqqında mülahizə irəli sürmək olar. Bu mürəkkəb məsələlərə işıq salan mənbələrin mövcudluğu, tarixi hadisələrin rekonstruksiyasına imkan verən mərxəzlərin, əlyazmalarının, təzkirə və risalələrin olması əldə olunan nəticələrin obyektivliyini təmin edir.

Məhz bu baxımdan zəngin mədəniyyətə, dini-fəlsəfi baxışlar sisteminə, milli kimliyi təmin edən mənəvi dəyərlərə, unikal dövlətçilik ənənələrinə sahib olan türk xalqlarının etno-psixoloji obrazının formalaşmasına zəmin yaradan tarixi qaynaqların tədqiqi Türk sivilizasiyasının özünəməxsusluğunu etiraf etməyə cəsarət etməyən, bu xalqların tarixinə kölgə salmağa çalışan avropasentrist müəlliflərin təkəbbürlü mövqelərinə cavab olacaq və tarixi ədaləti bərpasına xidmət edəcək.

Mahmud Kaşqarinin türkdilli xalqların tarixi fəlsəfi irsinin dinamikasında yeri və rolu

Türk xalqlarının dilinin, tarixinin, adət-ənənələrinin, düşüncə və həyat tərzinin, yayıldığı coğrafiyada özünəməxsusus nomad mədəniyyətinin əsas cəhətlərininin öyrənilməsi üçün əvəzsiz mənbələrdən biri Mahmud Kaşqarinin "Divani-Lüğəti-it-Türk" əsəridir.

Keçmişin obrazının rekonstruksiyasında tarixi mənbələrin rolu əvəzsizdir. Yazılı mənbələr, səlnamələr, etnoqrafik məlumatlar, folklor materialları, linqvistik abidələr – yalnız bu şərtlər əsasında tədqiqat obyekti olan tarixi dövr, hadisələr, xalqlar, regionlar haqqında dolqun təsəvvürün yaranması mümkündür. Vaxtı ilə mənbə ifadəsini "sənəd" kimi qəbul edilməsini daha məqbul sayan fransız alimləri Ş.V.Lanqlau və Ş.Senobos yazırdı ki: "Sənəd yoxdursa, - tarix də yoxdur".[1]

Tarixi gerçəkliyin, keçmişin bərpası, təkrar təxəyyüldə çanlandırılması mürəkkəb prosesdir və tarixi idrakın vəzifəsi bu gerçəkliyin maksimum dərəcədə rekonstruksiyasına nail olmaqdır.Lakin tarixçilərin, tədqiqatçıların baş

[1] Ланглау Ш.В., Шенобос Ш. Введение в изучение истории. – Москва, 1899, - с. 27.

vermiş hadisələri, yaşanılan prosesləri görüb dəyərləndirmək imkanı olmadığından, onlar daha çox mənbələrlə çalışır, materiallara istinad edir.Hər bir tarixi mənbə özlüyündə bir tarixi hadisədir. Müəyyən məkan və zaman içərisində yaranan bu əsər təkcə öz dövrünə xas əlamətləri deyil, həm də əvvəlki dövrlərdən süzülüb gələn informasiyaları da əks etdirir.Bu baxımdan "Divani-Lüğəti-it-Türk" əsərində Mahmud Kaşqarinin hadisələri, türk boylarının tarixi taleyini, həm müasirlərinin, həm də yaxın keçmişdə yaşayan insanların fəaliyyəti, düşüncələri, hiss və həyəcanları baxımından dəyərləndirilməsi əsərin ən müsbət cəhətidir. Bu bir dialoqdur.Tədqiqatçının üzərində çalışdığı daxili məntiqini dərk və şərh etməyə cəhd göstərdiyi tarixi mənbə vasitəsi ilə keçmişdə yaşayan insanlarla dialoqudur. Fransız tarixçisi Mark Blok yazırdı: "Tarix zaman içərisində olan insanlar haqqında elmdir.Tədqiqatçı subyektlə-tədqiqat obyekti arasında olan qarşılıqlı münasibət insanların əsrlər içərisində baş tutan görüşüdür. Tarix dirilişdir.Canlı insanların fəaliyyət göstərdiyi, insanların necə yaşaqıdlarını, nə düşündüklərini dərk etmədən dövrün mənzərəsini bərpa etmək mümkün deyil."[1]

Bu baxımdan Mahmud Kaşqarinin "Divani-Lüğəti-it-Türk" əsəri Mərkəzi Asiya sakinlərinin cəsur və döyüşkən ruhunu, fərqli zamanlarda yaşadığı tərəqqi və tənəzzülünün səbəblərini, mənəvi norma və etik prinsiplərini əks etdirən qiymətli əsərdir. Türk xalqlarının tarixi-fəlsəfi irsinin, linqvistik ənənələrinin, dilçiliyin müqayisəli-tarixi analizinin, areal linqvistikanın problemlərinin öyrənilməsində vacib qaynaq sayılan bu əsər "Türklər tarix yazmamışlar" iddiasında olanlara tutarlı cavabdır.

Türk dünyasının ən böyük mütəfəkkirlərindən biri, zəngin yaradıcılığı ilə bir çox ilklərə imza atmış alim, tarixçi, etnoqraf, dilçi, coğrafiyaçı Mahmud Kaşqarinin adı uzun əsrlərdir saysız-hesabsız tədqiqatçıları öz cazibəsinə cəlb edir. İstər Şərqdə, istərsə də Qərbdə onun yaradıcılığına, tarixi irsinə, gerçəkləşdiyi missiyaya çoxsaylı tədqiqatlar, sanballı araşdırmalar həsr olunub.Bu maraq bu gün də azalmır.Türk sivilizasiyasının unikallığını öyrənməyə çalışan, alimlərin bu mənbəyə dönə-dönə müraciəti təsadüfi deyil.

Mahmud Kaşqarinin adını dünya mədəniyyət tarixində əbədiləşdirən, tarixi yaddaşa əbədi yaşamaq haqqı qazandıran "Divani Lüğəti-it-Türk" ensiklopediyasının dəyərli məziyyətləri haqqında fikir bildirən alimlər bu əsəri türk xalqlarının tarixini, mədəniyyətini əks etdirən qiymətli sərvət hesab edir.Fərqli elm sahələrinin nümayəndələri bu əsərdə aradıqları suallara cavab tapır, coğrafiyacı, dilçi, tarixçi, etnoqraf Mərkəzi Asiyanın sakinlərinin orta əsrlərdə yaşam tərzini, dünyagörüşünün mifoloji komponentini, mədəni ənənələrini, tarixi təcrübəsini, təsərrüfat həyatını, etno-linvistik situasiyanı öyrənə bilir, türk xalqlarının etno-psixoloji xüsusiyyətlərini coğrafi determinizm mövqeyindən qiymətləndirməyə müvəffəq olur.

Mahmud Kaşqarinin ədəbi-tarixi irsinin görkəmli tədqiqatçısı Ramiz

[1] Bax: Блок М. Апология истории или Ремесло историка. – Москва, 1973, - с. 19.

Əsgər yazır: "Ortaq türk ədəbiyyatı qədim dövrdən Orxon-Yenisey abidələrinin, orta dövrlərdə isə dörd fundamental, möhtəşəm, klassik əsərin üzərində yüksəlir. Bunlar türk və dünya ədəbiyyatının ən nadir incilərindən biri sayılan "Dədə Qorqud dastanları", bəşər tarixinin və mədəniyyətinin həcm etibarı ilə ən böyük əsəri olan "Manas" dastanı, böyük türk mütəfəkkiri, şairi və dövlət xadimi Yusif Xas Hacib Balasaqunlunun "Qutadqu bilik" poeması və ilk türk ensiklopediaçı, dahi dilçi, filoloq, etnoqraf, mədəniyyətşünas Mahmud Kaşqarinin "Divani Lüğəti-it-Türk" əsəridir."[1]

Bu yazılı abidələrin hər biri türk xalqlarının keçdiyi mədəni-tarixi təkamül prosesini öyrənmək, dini-mənəvi təşəkkül prosesini izləmək, fərqli mədəniyyətlərin qarşılaşması nəticəsində yaranan sinkretizmin mahiyyətini anlamaq baxımından dəyərli mənbələrdir. Əsrlərin sınağından çıxmış bu əsərlər türk kimliyinin təqdimatı, türk insanın tarixdə yeri və rolunu gələcəyə ötürmək haqqının qazanılmasına imkan verən mənbələrdir. Əsrlər keçməsinə baxmayaraq fəlsəfi, linqvistik, siyasi, tarixi-etnoqrafik məzmuna malik olan bu mənbələr öz aktuallığını qorumaqda davam edərək hər yeni mərhələdə türk super etnosun özünütəsdiqində yardımçı olur.

Mahmud Kaşqarinin həyat və yaradıcılığı haqqında müəyyən məlumatlar mövcud olsa da bu böyük tarixi şəxsiyyətin obrazının, fəaliyyətinin obyektiv təqdimatı üçün kifayət deyil. Əslində alimin həyatı onun əsərlərində, yaradıcılığında öz əksini tapır. Nüfuzlu tədqiqatçıların, məşhur türkoloqların Mahmud Kaşqarinin bioqraflarının verdiyi məlumatlara istinad edərək biz də bu böyük tarixi şəxsiyyətin fəaliyyətinin bəzi cəhətlərini araşdırmağa, onun obrazını yaratmağa cəhd edəcəyik.

Tarix təkcə xalqlar və dövlətlər tərəfindən yaradılmır, tarixin hərəkətverici qüvvələri sırasında öz zəkası, istedadı, əməli fəaliyyəti ilə nəinki öz dövrünün, hətta sonrakı tarixi mərhələlərin xarakterinə, siyasi-iqtisadi, sosial-mədəni sferalarda yaşanılan proseslərin məzmun və mahiyyətinə, inkişaf istiqamətinə təsir gücünə malik olan tarixi şəxsiyyətlərin xüsusi yeri var. Bu şəxslər öz unikallıqları, həyat prinsipləri və məqsədləri, mənsub olduğu toplumun qarşılaşdığı maneələri dəf etmək bacarığı, kütlənin enerjisini özünə tabe edə bilmək istedadı ilə insanların təfəkkür tərzini dəyişmək qətiyyətinə malik olurlar. Onların həyat və fəaliyyəti, yaradıcılığı böyük bir tarixi dövrü anlamaq, müasirlərinin həyat və düşüncə tərzinə bələd olmaq, tarixi hadisələrin baş verməsinin səbəb və nəticə əlaqəsini dərk etmək üçün ən qiymətli məlumat mənbəyinə çevrilir.

Mahmud Kaşqarinin 90 illik zəngin, ziddiyətli və mürəkkəb həyatını xronoloji çərçivəyə salmaq, orta əsr tarixşünaslığına xas standart baxış sərgiləmək qeyri-mümkündür. Ümumiyyətlə, Orta əsrlər Şərq mütəfəkkirlərinin həyat və yaradıcılığını dövrün xüsusiyyətləri, məkanın, mühitin özəllikləri, zamanın

[1] Mahmud Kaşqari, "Divani-lüğəti-ət Türk". 4 cilddə, Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər. - Bakı, 2006, - s. 8.

fərqlilikləri, yaşadıqları hadisələrin səbəb və nəticə əlaqələri, məqsəd və məramlarının xarakteri baxımdan dəyərləndirərək dolğun mənzərə yaratmaq olar.

Mahmud Kaşqarinin şəcərisini tədqiq edən alimlərin qənaətinə görə o, 1028-1029-cu illərdə tarixə türk-müsəlman dövləti kimi daxil olan Qaraxanilər dövlətinin Kaşqar şəhərinin yaxınlığında yerləşən Opal qəsəbəsində doğulmuşdur. Mahmud Kaşqarini təvəllüdünə dair mübahisələr bu gün də davam etməkdədir. Mahmud Kaşqari irsinin məşhur tədqiqatçısı A.N.Kononov XX əsrin 70-ci illərində bu məsələ ətrafında yaranmış mübahisələr zamanı öz düşüncələrini belə bölüşürdü: "Böyük türkoloqun nə doğum, nə ölüm tarixi məlum deyil. Hətta əsərlərinin yazılma tarixi da qeyri-müəyyəndir. Bu barədə bu və ya digər dərəcədə ağlabatan fərziyyələr mövcuddur."[1]

X-XI əsrlərdə hakimiyyəti təkcə Şərqi-Türküstanla məhdudlaşmayıb, bütün Orta Asiyanı əhatə edən Qaraxanilər dövlətinin paytaxtına çevrilən Kaşqar şəhəri İpək yolu üzərində yerləşdiyindən sosial-iqtisadi əlaqələrin, ticarət münasibətlərin, elmi fikrin, təhsilin sürətlə inkişaf etdiyi bir mədəniyyət mərkəzi idi. Xanədan ailəsinə mənsub bir əsilzadə kimi belə bir mühitdə böyüyən, təhsil alan Mahmud Kaşqarinin gələcək həyat yolunun istiqamətlənməsi bu şərtlər əsasında baş vermişdi. Ərəb tarixçisi İbn-Əsirin verdiyi məlumata əsasən o, əslən Barsqanlı olan Kaşqar əmiri Məhəmməd Boğra xanın nəvəsi, Yusif Qədir xanın nəticəsi idi. Mahmud Kaşqari öz əsərində ailə şəcərəsindən bəhs edərək yazırdı: "Bizim atalarımız olan bəylərə "xəmir" deyirlər, çünki oğuzlar "Əmir" deyə bilmədikləri üçün əlifi x-yə çevirib söyləyirlər. Atamız türk elləri Samanoğullarından olan bəydir, adına Xəmir Təkin deyilir".[2]

İslam Ensiklopediyasında bu sülalənin tarixi və dövlətin adının mənşəyi ilə əlaqədar verilən məlumata əsasən "Öncələri Türküstan və Uyğur xanlarının adıyla bilinən bu xanədan mənsubları "Qara xan", "Qara xaqan", "Arslan Qara xaqan", "Buğra xaqan" kimi ünvanlarda yüksəliş və ucalıq anlamına gələn qara kəlməsini istifadə etdikləri üçün qurmuş olduqları dövlətə də bu adı vermişlər."[3]

Ata-babalarının qılınc gücü ilə yaratdıqları güclü Türk dövlətinin adını Mahmud Kaşqari öz qələmi ilə əbədiləşdirməyə müvəffəq oldu.

Alimin anası dövrün görkəmli alimi Xoca Seyfəddin Büzürgüvarın qızı Bibi-Rəbiyyə xanım savadlı, geniş dünyagörüşünə malik kübar xanımlardan idi.Təəssüf ki, bu xanım haqqında mənbələrdə geniş məlumat əldə etmək qeyri-mümkündür. İlk təhsilini saray müəllimlərindən alan Mahmud Kaşqari daha sonra Satuk Buğraxanın inşa etdirdiyi Mədrəsəyi-Həmidiyyə və Mədrəsəyi Saciədə təhsilini davam etdirmişdir.

---

[1] Кононов А.Н. Махмуд Кашгари и его "Дивани лугати-ит-тюрк"/Советская тюркология, 1972, no 2, c. 3.

[2] Mahmud Kaşqari. Divani lüğəti-türk.Tərcümə edən və nəşri hazırlayan Ramiz Əsgər. – Bakı: - 2006, - s.173.

[3] İslam ensiklopediyası Abdülkərim Özaydın. Karahanilər, cilt 6. – İstanbul: - 1968.

Onun dünyagörüşünün formalaşmasında dövrünün görkəmli alimlərindən Şeyx Cəmaləddin Bağdadinin, Şeyx İman əz Zahidinin, Hüseyn ibn Xələf əl-Kaşqarinin böyük rolu olmuşdur. Kaşqar mədrəsələrində şərq dilləri ilə yanaşı riyaziyyat və astronomiya, məntiq, hüquq və ilahiyyat, ədəbiyyat və tarix, coğrafiya da tədris olunan fənlər sırasında idi. Orta əsrlər dövründə Şərq ölkələrində fəaliyyət göstərən məşhur mədrəsələrdə təhsilin ali məqsədi geniş dünyagörüşünə, universal biliyə malik şəxsiyyətlər yetişdirmək idi.

Yaşadığı məkan, mənsub olduğu etnos, türklərin yayıldığı geniş coğrafiyada qarşılaşdığı hadisələr, köçəri və yarımköçəri tayfaların daxili konsolidasiya xüsusiyyətləri, tayfa ittifaqlarının birləşməsini təmin edən amillər, müxtəlif türk boylarına xas olan adət-ənənə, davranış normaları, dil xüsusiyyətləri, fərqli dialektlər hələ gənc yaşlarından Mahmud Kaşqarinin maraq dairəsinə daxil olan problemlərdən idi. Lakin qayğısız gənclik illəri çox çəkmir.

Mahmud Kaşqarinin babası Barsqan əmiri Məhəmməd Buğraxan Yusif 15 ay hakimiyyətdə olduqdan sonra hakimiyyəti böyük oğlu Hüseynə verməк qərarına gəlir, lakin onun digər oğlu İbrahim ibn Məhəmməd bu qərarla razılaşmayıb, atası və qardaşına qarşı sui-qəsd planını həyata keçirərək onları zəhərləyib öldürtdürülür.

1057-ci ildə 29 yaşında olarkən həyatında baş verən bu faciə Mahmud Kaşqarinin qədərini tamamilə dəyişərək, onu vətəni tərk edib, qürbətə üz tutmağa vadar etdi. Az sonra atasının qatili İbrahim Məhəmmədin Yıqan Teginlə müharibədə həlak olduğunu eşitsə də, hakimiyyətə gələn yeni siyasi iqtidarın həyatına təhlükə yaradacağını hiss edərək geri qayıtmır və Kaşqardan uzaqlaşır.

O.Pritsakın araşdırmalarına əsasən Kaşqarlı Mahmud Karaxanlıların hökmdar sülaləsində gələn və bir saray çevrilişi olduqdan sonra Kaşqardan ayrılan və türk obalarını başdan-başa gəzərək gələcək çalışmaları üçün məlumatlar toplayan bilim adamıdır.[1]

15 il ərzində o, türk boylarını ziyarət edir, şifahi xalq ədəbiyyatını yaxından öyrənir, folklor nümunələri toplayır, dastanlar dinləyir, müxtəlif dini etiqadlı insanlarla görüşür, ləhcələr arasında fərqləri araşdırır, Bulqar, Suvar, Peçeneq kimi uzaq tayfalar ilə yaxından tanış olur, zəngin material toplayır. Oğuz, Qıpçaq, Arqu, Çiqil, Uyğur dillərinin oxşar və fərqli cəhətlərini tədqiq edir. Ərəb, fars, türk mədəniyyətinə gözəl bələd olması, şərq dilləri mükəmməl bilməsi linqvistik şüurun formalaşmasında mühüm rol oynamışdı. Bəlkə məhz bu illər ərzində Mahmud Kaşqari mənsub olduğu etnosun tarixinə, dilinə, mədəniyyətinə, düşüncə tərzinə marağının və sahiblik hissinin artması nəticəsində o, türk kimliyini, etnik identikliyi qorumaq ehtiyacını daha dərindən hiss edir. Əks təqdirdə türk insanın taleyinə, keçmişinə və gələcəyinə olan sədaqətin,

[1] Bax: İslam ensiklopedisi (Karahanliler maddesi) 6 c. - İstanbul, 1968, s. 260; Кормушин Н.В. Введение //Махмуд аль-Кашгари. Диван лугат-ит-тюрк (Свод тюркских слов). - Москва: Восточная литература, - 1, 2010.

inamın, ehtiramın ifadəsi olan "Divani Lüğəti-it-Türk" əsəri yarana bilməzdi.

Sosio-mədəni və sosial-psixoloji fenomeni olan etnik identiklik müəyyən bir etnik birliyə mənsubluq hissinin yaşanması, dərk olunmasıdır. Tarixən formalaşmış etno-mədəni norma və dəyərlərin daşıyıcısı olan insan bu qrupa xas unikal cəhətləri sahib olduğu dil vasitəsi ilə ifadə edir, etnosun kommunikativ məkanının qorunub saxlanılmasına, intellektual və mədəni dəyərlərin ötürülməsinə nail olur. Dil etnosun ruhudur, onun varlığını, gələcəyini təmin edən əsas faktordur. Məhz bu baxımdan Mahmud Kaşqarinin əsəri olduqca dəyərlidir.

Uzun sürən səyahətlər zamanı Pamirə, daha sonra Xorasanın paytaxtı, Yaxın Şərqin mədəni mərkəzi sayılan Nişapur şəhərinə yerləşir. Nişapurun elmi-mədəni mühiti, onlarla elm mərkəzi olan mədrəsələri, görkəmli bilim adamları ilə tanışlıq, ünsiyyət, elmi məclislərdə iştirakı onun alim kimi püxtələşməsinə zəmin yaradırdı. Daha sonra Mahmud Kaşqarinin həyat və fəaliyyətinin yeni bir mərhələsi – Bağdad dövrü başlandı. Maraqlı cəhət odur ki, uzun illər Bağdad mədrəsində müdərrislik edən Mahmud Kaşqarinin təxmini 10 il ərzində geniş fəaliyyəti haqqında məlumatlar mövcud deyil və yalnız 1072-1074 illər ərzində "Divani Lüğəti-it-Türk" əsərinin təqdimatı ilə onun adı ictimai-siyasi həyatda səslənməyə başlandı. Ömrünün müdrik çağlarında vətən həsrəti Mahmud Kaşqarini vətənə dönməyə vadar etdi. Opal qəsəbəsində mədrəsə inşa etdirib uzun illər, ömrünün sonuna qədər müdərrislik edən alimin 1125 və ya 1127 ildə vəfat etdiyi ehtimal olunur. Alim Opal qəsəbəsinin şimalı-qərbində, Həzrət Molla dağının ətəklərində dəfn edilib. Uzun əsrlərdir bu məzarı ziyarətgaha çevirən insanlar burada böyük bilim adamının, övliyanın, vətənini və xalqını sevən böyük Türkün uyuduğunu təsdiq edir. Nəsildən-nəsilə ötürülən bu məlumat tarixi yaddaşda öz yerini tutaraq mənəvi sərvətə çevrilib. Türk xalqlarının mədəni-tarixi irsinin yaranmasında böyük əmək sərf etmiş mütəfəkkirə vəfa borcunu yerinə yetirmək, onun tarixi-fəlsəfi irsini qorumaq, ədəbi mirasına sahib çıxaraq gələcəyə ötürmək isə hər gələn yeni nəslin mənəvi dəyərlər sistemində mühüm yer tutan tarixi irsə varislik prinsipinə çevrilməlidir.

Mahmud Kaşqarinin yaradıcılığını əhatə edən tarixi fəlsəfi mühit və şərait

Mahmud Kaşqarinin möhtəşəm irsini, böyük alimin məqsədlərinin gerçəkləşməsi yolunda fəaliyyətini yaşadığı tarixi dövrün, siyasi, etno-mədəni mühitin vacib şərtləri kontekstində araşdırmaq lazımdır. Alimin yaradıcılığını iki mərhələyə bölmək olar. Alimin gənclik illərinin və fəaliyyətinin birinci mərhələsini təşkil edən Kaşqar dövrü, ikinci isə müdrik bir alim kimi formalaşdığı elmi ictimaiyyətinin etirafını qazanmış olduğu Bağdad dövrü.

Mahmud Kaşqarinin əsərinin təhlili Qaraxanilər dövlətinin ictimai-iqtisadi, sosial-mədəni tarixi haqqında təsəvvür formalaşmasına imkan verir.

XI əsrin əvvəllərində, Qaraxanilər dövlətinin iqtisadi-siyasi yüksəliş dövründə paytaxt Kaşqarda mövcud olan elmi-intellektual, mədəni mühit təkcə

Mahmud Kaşqarinin deyil digər görkəmli alimlərində yetişməsinə zəmin yaratmışdır. Türk-İslam aləminin məşhur simalarından biri, türk zehniyyəti və dövlətçilik tarixi üçün mühüm əhəmiyyət kəsb edən "Qutadqu-Bilik" kimi dəyərli əsərin müəllifi Yusif Balasaqunlu (1017-1077) da Qaraxanilər dövlətində yaşayıb yaratmışdır. Kaşqar, Səmərqənd, Buxara, Fərab kimi şəhərlər öz zəngin kitabxanaları, mədrəsələri, məsçidləri, tərcüməçiləri ilə məşhur idi. Bəhs edilən dövrdə antik-yunan fəlsəfəsinin məşhur alimlər tərəfindən gerçəkləşdirilən tərcümələrini və təfsirlərini varrakilər- sürətçilər tərtib edərək, geniş yayılmasına zəmin yaradırdı. Al-Varrak – təkcə kitab ticarətçisi deyildi. Bu şəxslərin vəzifəsi dərin məzmunlu, dəyərli mətnlərin nəfis şəkildə kağızlara köçürərək, mükəmməl tərtibatını təmin etmək idi. Bu bir mexaniki əmək deyil, ilham və yaradıcılığın məhsulu idi. Təsadüfi deyil ki, bu gün də Orta əsr əlyazmalarını vərəqləyərkən ilkin gözəlliyini, zərafətini saxlayan bu əsərlər qarşısında heyranlıq yaşayırıq. Şəhər kitabxanaları belə əsərlərlə zəngin olurdu. "Buxarada Samanoğullarının saray kitabxanasında çalışan İbn-Sinanın bizə anlatdığına görə böyük məkanı əhatə edən kitabxanada bir-biri üzərinə qoyulmuş çox sayda rəfləri içinə alan bölümlərdən ibarət başlı-başına bir saray vardı.Bu bölümlərdən hər biri elmin bir sahəsinə ayrılmışdır: filoloji, hüquq, fəlsəfə, tarix, riyaziyyat, coğrafiya və s. Bir kataloq da vardı "Heç kimsənin heç bir zaman görmədiyi kitabları mən orada gördüm" deyir İbn-Sina."[1]

Paytaxt Kaşqarın sosial-mədəni səviyyəsindən xəbər verən xəstəxanalar, karvansaraylar, sənətkar emalatxanaları, kitab emalı və ticarət mərkəzləri, hamamlar, idman oyunlarının keçirildiyi meydanlar orta əsr şərq şəhərləri haqqında yaranmış yanlış təsəvvürləri inkar edir. Xüsusilə Qaraxanilər dövründən qalan maddi – mədəniyyət abidələri bu gün də mədəni irsin qorunmasını əks etdirən siyahılara daxildir.X əsrə aid Burqan minarəsi, Fəxrəddin Razinin Ürgəncdə tikilmiş məqbərəsi (XII), Buxarada məşhur Kəlyan mədrəsəsi (1127-1129), Namazgah məsçidi (1119-1120), XI-XII əsrlərdə tikilmiş və bərpa olunmuş Hakim Termizi sərdabəsi, XI əsrdə Səmərqənddə Qaraxanlı hökmdarı Tamqaç xan İbrahimin tikdirdiyi dini mərkəz və Kussam ibn Abbas mədrəsəsi, Səmərqənddə bu günə qədər öz möhtəşəmliyini və memarlıq baxımından təkrarsızlığını qoruyan Şahi-Zində kompleksi Orta Asiya türk memarlığının nadir nümunələridir. Orta əsr memarlığının ən gözəl nümunələri sayılan, əzəmət, qüdrət, gözəllik simvolu olan bu abidələr türk xalqının zəngin mədəni, mənəvi irsinin təzahürüdür.

Orta əsrlər dövründə təkcə Kaşqar deyil, Buxara, Səmərqənd, Fərab, Xorezm də mədəni-intellektual həyatın episetrinə çevrilmişdir. Bu şəhərlər öncədən də mədəni ənənələrə, şəhər idarəçiliyi qaydalarına, mədrəsə və ribatlara malik olmuşdur. Şərq intibahının əsasını qoymuş Musa əl Xarəzmi(783-850), Məhəmməd Təbrizi (824-892), Əhməd əl Fərqani (797-865), Əl Fərabi (870-950), Abu Reyhan Biruni (974-1048), İbn Sina (980-1037) məhz bu mədrəsə-

[1] Ali Mazaheri. Orta çağda müslümanların yaşayışları. – İstanbul, 1972, - s. 186.

lərin müdavimləri olmuşdur. Bu tarixi şəxsiyyətlər öz yaradıcılığı ilə elmi biliklərin inkişafına, təhsilin səviyyəsinin yüksəlməsinə, mədəniyyətin çiçəklənməsinə böyük töhfə verərək Şərq intibahının konturlarını müəyyən etmişdir. Bəhs edilən dövrdə Qaraxanilər dövlətində təhsil sisteminin yüksək inkişaf səviyyəsini təsdiq edən çoxsaylı məlumatlar mövcuddur.

"X əsrdə Orta Asiyada Qaraxanlılar (840-1212) və Misirdə Fatimilərdən (909-1171) başlayıb, Qacarların son dövrünə qədər təsirini qoruyan mədrəsə təhsili yeganə təhsil sistemi deyildi. Aparılan araşdırmalar Orta əsrlərdə Azərbaycan da daxil olmaqla İslam ölkələrində başlıca təhsil mərkəzlərinin aşağıdakı kimi olduğunu qeyd edirlər: məktəblər və küttablar, siffə, məsçidlər, camilər, saray və divan məktəbləri, kitabxanalar və kitab dükanları, ülama evləri, ədəbi məkanlar, vadiyə, hərəm məktəbləri (saray qadınları üçün), mədrəsələr, ribatlar və dərgahlar."[1]

Orta əsrlərdə elm mərkəzlərinin və təhsil ocaqlarının kilsənin tam nəzarətində olduğu, azad düşüncənin hər vasitə ilə məhdudlaşdırıldığı Xristian Avropasının heç bir dövlətində belə mükəmməl tədris sistemi mövcud deyildi.

VIII-X əsrlərdə Mərkəzi Asiyada biri-birinin ardınca tarix səhnəsinə daxil olub, az sonra yaratdıqları siyasi ittifaqın dayanıqlığını, sabitliyini təmin edə bilməyərək, daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizələr, müharibələr nəticəsində zəifləyərək dağılmağa məhkum olan digər türk dövlətlərinin taleyini yaşayan Qaraxanilər dövlətinin genezisinə, dövlətçilik ənənələrinə dair "Divani lüğəti-at-Türk" əsərində qiymətli məlumatlar mövcuddur.

"Türklər əslində iyirmi boydur. Onların hamısı Əleyhisalam Nuh peyğəmbərin oğlu Yafəsə,Yafəsin oğlu türkə qədər uzanır...Türk boylarının hər birinin saysız-hesabsız oymaqları vardır ki, sayını yalnız Allah bilir".[2]

Mahmud Kaşqari tərtib etdiyi dünya xəritəsində bu türk tayfalarının yayıldığı coğrafi məkanları qeyd etmiş, müsəlman ənənəsinin əksinə olaraq dünyanın mərkəzi kimi Məkkəni deyil, vətəni Balasaqun və Barsqan seçilmişdir.

Mahmud Kaşqarinin əsərində adı çəkilən türk boyları – IX əsrin sonlarında Mərkəzi Asiyanın şimali-şərq çöllərində yaşayan çiqil, yaqma, oğuz, uysun və digər tayfalar bir araya gəlib, yeni bir siyasi birlik yaradaraq Qaraxanilər dövlətini qurmağa müvəffəq oldular. X əsrdə Karluq xaqanlığının süqutu ilə ona məxsus olan Yeddi su, Çu,Talas vadisi, daha sonra Tyan Şan dağının ətəklərinə qədər olan ərazilər Qaraxanilər dövlətinin tərkibinə daxil oldu.

Qaraxanilər dövləti köçəri və yarımköçəri, oturaq həyat tərzi yaşayan , maldarlıqla, atıcılıqla məşğul olan türk tayfalarının etno-siyasi birliyi nəticəsində meydana gələn feodal-patriarxal dövlət idi.Bu dövlətin siyasi-hərbi quruluşu zəbt olunmuş torpaqlar üzərində hökmranlıq əsasında formalaşmışdı. Ərəb və

[1] Əkbər Nəcəf. Orta əsrlərdə Azərbaycanda təhsil anlayışı, strukturu, metodologiyası və tədris vəsaitləri (X-XV əsrlər). // Azərbaycan məktəbi. – Bakı: - 2018, № 2. - s. 109.

[2] Mahmud Kaşqari. "Divani-lüğəti-ət Türk". 4 cilddə, Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər. – Bakı: Ozan, - 2006, - s. 77.

fars mənbələrində bu dövlətin adı "Əl-Xəqaniyyə", "Əl-Xaniyə", "Mülk-ül-Xəqaniyyə" kimi təqdim olunur. "Bu qrup tədqiqatçılar Qaraxanilər sülaləsini uyqurlara, digərləri karluklara, Türkiyə tarixçiləri isə Altay türklərinə aid edirdilər."[1] Dövlətin ilk paytaxtı Balasaqun şəhəri seçilsə də, daha sonra paytaxt Kaşqara köçürüldü.

Qaraxanilər dövlətində hökmdara "Arslan xan", "Buğraxan", "Xaqan" titulları verilirdi. Bu titulların genezisi qədim türklərin totemik təsəvvürlərinə əsaslanırdı."Arslan xan" titulunu çiqililər, "Boğra xan" titulunu isə yaqma tayfasından seçilmiş hökmdar daşıya bilərdi. Dövlətin tarixi xronoloji varlıq müddəti bir neçə əsri (940-1212) əhatə edir. 1212 ildə Xorezmşah Məhəmmədin hücumu ilə daxili ziddiyyətlər nəticəsində zəifləyən Qaraxanilər dövlətinin varlığına son qoyuldu.

Qaraxanilər dövləti türk xalqlarının tarixində bir sıra fərqli xüsusiyyətləri ilə fərqlənən idarəçilik sistemi idi. Feodal iyerarxiyası prinsipinə əsaslanan siyasi idarəçilik forması, hakimiyyətdə yeni qurumlar – divan, hərbi administrativ təsisatlar, fərqli qanunvericilik sisteminin yaranması bu dövləti bəhs edilən dövrdə digərlərindən ayıran cəhətlər idi. Feodal münasibətlərinin inkişafı ilə xaqanlıq institutunun səlahiyyət və funksiyaları da getdikcə dəyişir, yeni siyasi-hüquqi münasibətlər formalaşırdı. Xüsusilə Qaraxanlı hökmdarı Satuk Buğra xan Abu əl-Kərimin və onun oğlu Musanın 960-cı ildə İslam dinini rəsmi dövlət dini elan etməsi ilə dövlətin xarakterində, hakimiyyətin sakrallaşmasında, idarəçiliyin şəriət qanunları əsasında həyata keçirilməsində əhəmiyyətli dəyişikliklər baş verdi.

V.V.Bartold yazırdı ki: "Satuk Buğra xan ilk olaraq İslamı qəbul edən türk hökmdarı idi." Tədqiqatlarında "Təzkiri Buğra xan" əsərinə əsaslanan V.V.Bartold bu əsərin Mərkəzi Asiyada yaşayan xalqların tarixini və mədəniyyətini öyrənmək, İslamın türklər arasında yayılması prosesini tədqiq etmək üçün əvəzsiz mənbə olduğunu qeyd edirdi.[2] O, "Təzkiri Buğra xan"əsərində olan məlumatları İbn Əsirin verdiyi məlumatlarla müqayisə edərək Şərqi Türküstanda 200 minlik türk ailəsinin İslam dinini qəbul etməsi prosesini təsvir edir və bu prosesin Qaraxanlı hökmdarı Yusif Qədirxan Qazinin dövründə başa çatdığını göstərirdi. Mahmud Kaşqarinin bu şəxs haqqında "Divani Lüğəti-it-Türk" əsərində yazır: "Bu insan qüdrətli və məqsədinə çata bilən qətiyyətli insan idi."

Mahmud Kaşqari nəinki yaşadığı tarixi dövrün, əsrlər boyu türk xalqlarının topladığı tarixi-mədəni irsi, tarixi gerçəkliyin təsvirini verməklə yanaşı, dini dünyagörüşü etibarı ilə Göy Tenqriyə inanan, türk xalqlarının İslamı qəbul etməsi ilə yaranan yeni mühitin özünəməxsusluğunu da qeyd edirdi. Türk xalqlarının islamla görüşü daha öncə ərəb istilaları zamanı baş vermişdi. "Türklər

[1] Əsməd Muxtarova.Türk xalqlarının tarixi. – Bakı: - 2013, - s.189.

[2] Бартольд В.В. Очерки истории Семиречья. Сочинения, - Москва: - 1963, т. 2, часть 1, - с. 43.

751-ci ildə İslamın Mavərənnəhrdə və Mərkəzi Asiyada yayılmasına rəvac verən Talas savaşına qədər də dəfələrlə ərəblərlə vuruşmuş, İslam dinini qəbul etməmişlər."[1]

Xaqanın Allahın iradəsini yer üzərində gerçəkləşdirən qüvvə kimi qəbul edilməsi, hakimiyyətin yeni formalaşan strukturunun xarakterinə, hökmdarın hüquq və səlahiyyətlərinə dair göstərişlər nomadların tarixən mövcud olan hüquqi-siyasi təsəvvürlərinə uyğun deyildi. Köçəri-türk tayfalarının oturuşmuş ənənəsinə əsasən Xaqan öz idarəçilik funksiyalarını yerinə yetirərkən nəsli-tayfa aristokratiyasının iradəsini nəzərə almalı, adət ənənələri, törə qanunlarını gözardı etməməli idi. İslamın rəsmi status qazanması ilə İslam hüququ və dini ehkamiyyət sisteminin tələblərinə əsasən isə dini və dünyəvi hakimiyyəti öz əlinə cəmləşdirən hökmdar, mütləq hakim kimi Allahın iradəsini əks etdirən göstərişləri rəhbər tutmalı, dövlət və toplum İslam hüquq normaları ilə idarə edirdi. Beləliklə, mövcud ziddiyyətlərə daha bir faktor – hüquqi-siyasi ziddiyyətlər də əlavə olunurdu.

İslam dininin Mərkəzi Asiyada yayılması, yerli xalqların düşüncəsinə və həyat tərzində mühüm yer tutması, tənzimləyici funksiyanı yerinə yetirməsi heç də asan olmamışdır.Öz hakimiyyətini və mövqelərini qorumaq məqsədi ilə İslam dinini qəbul edən feodallardan fərqli olaraq xalq kütlələrinin öz dini etiqadlarından, inanc sistemindən imtina etməsi uzun əsrlər davam etmişdir. Türklərin ərəb istilasına qarşı mübarizəsi, islamın yayılmasına qarşı müqavimәti ərəb tarixçilərin, coğrafiyaçıların əsərlərində öz əksini tapıb. Əbu İshak əl İstəhri "Kitab məsalik al-mamalik" (Dövlət və yollar haqqında kitab) əsərində yazırdı ki, "Üzkənd şəhərində islamın yayıldığı ən ucqar şərq qəsəbəsində yaşayan türklər uzun illər boyu ərəb qanunlarına qarşı müqavimət göstərmişdi."

Digər bir cəhəti də xüsusi qeyd etmək lazımdır. Bəhs edilən dövrdə Qaraxanilər dövlətində müxtəlif dillərdə danışan, fərqli dinlərə etiqad edən, dini məbədlərdə ayinlərini sərbəst gerçəkləşdirən insanlar yaşayırdı. IX-XI əsrlərdə Qaraxanilər dövlətində Tanrıçılığın, xristianlığın, buddizmin, iudaizmin, maniliyin, zərdüştlüyün ardıcıllarının İslam dinin hakim mövqeyə sahib olduğu bir mühitdə, tolerantlıq şəraitində öz mövcudluğunu davam etdirməsi çox mətləblərdən xəbər verir. Bu mədəni müxtəlifliyə dözümlü yanaşma, dini etiqad fərqliliyinə hörmət türk insanın yüksək mənəvi dəyərlər sisteminin, əxlaq normalarının mahiyyətindən irəli gəlirdi.

Qaraxanilər dövründə İslamın daxilində yaranmış, daha sonra ortodoksal islam düşüncəsindən fərqli baxışlarına əsasən müstəqil-dini, fəlsəfi-mistik cərəyana çevrilmiş sufizm təriqəti geniş yayılmışdı. Sufizm daxili təmizləmə, mənəvi kamillik yolu ilə Allaha yaxınlaşma imkanını, həqiqətin intuitiv idrak vasitəsi ilə dərk olunmasını əsas prinsip sayan, Allahla ünsiyyətin yaranmasına nail olmaq üçün mənəvi kamillik mərhələlərini qət edilməsini vacib sayan bir dini-fəslsəfi təlimdir. Sufizmin Mərkəzi Asiyaya yayılması VIII-IX əsrlərə tə-

[1] Bax: Hikmet Tapun.Türklerin dini tarihcisi. – İstanbul, 1978, - s. 108.

sadüf edir. Tədqiqatçılar Orta əsrlərdə sufizm təlimin inkişafını üç mərhələyə bölür. VIII-X, X-XII, XII və sonrakı əsrlər.Türk-müsəlman mistiklərinin fəaliyyətini tədqiq edən A.N. Pılev yazır ki, "Öz poetik əsərləri ilə məşhur olan mistikləri - Xoca Əhməd Yasəvi, Süleyman Bağırqani, Əbu-Bəkr Vasiti, İbrahim ibn Ədhəm məhz ikinci dövrdə yazıb, yaratmışlar.[1]

Mərkəzi Asiyada Sufilərin təliminin yerli xalq içərisində yayılmasının uğurunu təmin edən isə onların antik mistik idealist fəlsəfəni, xristian teologiyasına, yerli dini ənənələrə və xalqın etiqadları ilə yaxınlaşdıra bilməsi, Quran göstərişlərini və islamın mürəkkəb ehkamiyyət sistemini yerli xalqın əsrlərlə formalaşmış düşüncə tərzinə uyğun təqdim etməsi idi. Orta Asiyada üç sufi təriqəti - Xorezmdə Kübraviyyə, Fərqanədə Qədiriyyə, bütün Şərqi Türküstanda Yasəviyyə təriqətlərinin əsrlər boyu öz təsir gücünü itirməməsi məhz bu şərtlərlə izah oluna bilər.

Əsrlər boyu türklər yaşadıqları coğrafiyalarda çoxsaylı dini-etiqad sistemiləri ilə rastlaşmış, buddizm, maniçilik, iudaizm, xristianlıq, zərdüştlük dinlərinin prinsipləri ilə tanış olmuşlar. Lakin türklərin İslam dinini qəbul etməsinin əsas səbəblərindən biri türklərin dini inancı ilə islam ehkamiyyətinin bənzərliliyini təmin edən vahid olan yaradıcı qüvvəyə tək olan Allaha inam olmuşdu.

Daha sonralar islamın türklər arasında yayılmasında Hoca Əhməd Yasəvi, Tapdıq Əmrə, Yunus Əmrə, Cəlaləddin Rumi kimi böyük mütəfəkkirlərin rolu olmuşdur. Tədqiqatçıların fikrincə müxtəlif ənənələrə, tarixi talelərə, inkişaf səviyyələrinə malik olan xalqların İslam mədəniyyəti orbitinə daxil olaraq qarşılıqlı münasibəti nəticəsində yaranan yeni mədəni-intellektual mühit Türk-İslam mədəniyyəti kimi fenomeninin formalaşmasına zəmin yaratmışdı. Bütün bunlarla yanaşı islamın rəsmi din kimi qəbul edilməsi türk xalqlarının qədim inanclarının tarixi yaddaşından tamamilə silinməsi və yerini islam etiqadlarına verməsi demək deyildi.

Mərkəzi Asiyada islamın yayılması və digər dini etiqad formaları ilə qarşılaşması prosesini tədqiq edən E.B.Berezikov yazırdı: "İslam Buxara və Səmərqənd əhalisi arasında dərhal uğur qazana bilmədi. Atəşpərəstlərin qədim dini olan zərdüştlük uzun zaman islamın qarşısında maneə olaraq qalırdı.Elə dini ayinlər var idi ki, həm müsəlmanların müqəddəs kitabı Qurandan, həm də qədim Avestadan dualar oxunurdu."[2]

Türk xalqlarının totemik inanclarını, şamanizmin mürəkkəb dini-mədəni sistemini, təsir gücünü də nəzərə almaq lazımdı.Beləliklə, İslam yayıldığı coğrafiyada zərdüştlük, buddizm, xriastianlıq, tanrıçılıq, manilik, iudaizmlə qarşılaşmalı olur sinkretik düşüncə tərzinin formalaşması prosesi baş verirdi.

---

[1] Вах: Пылев А.И. Суфизм у среднеазиатских тюрков в Караханидский период (XI-XII): основные черты и крупнейшие представители. Вестник СП(Б)ГУ, сер. 13, 2012, Вып. 1.

[2] Березиков Е.Б.Святые Ислама. – Казань: - 1996, - с.3.

Mahmud Kaşqarinin əsərində müxtəlif səhifələrə sənədlənmiş məlumatlarda türk xalqlarının islam önməli dini inanclara, kainat, dünya, yaradılış haqqında təsəvvürlərə, türk insanının ruhi-mənəvi aləminə, xalq müdrikliyi nümunələrinə, bəşəriyyətin mənəvi mədəniyyətin ibtidai froması olan zəngin mifologiyaya xüsusi yer ayrılmasın etnik identikliyin təzahürü idi.

"Qədim türk dünyagörüşünün son mərhələsi islamın türklər arasında yayılması, əsas dini-mənəvi dünyagörüşü formasına çevrilməsi ilə başlayır. Tanrıçılıqdan islama keçid, ümumiyyətlə, ilkin orta əsrlər türk təfəkkürünün ən qlobal problemlərindən biridir."[1]

Bu fikrə müəyyən korrektivlər etmək olar. İslamın köçəri türk tayfaları içərisində yayılması onun yerli dini etiqadlara, ənənə və adətlərə güzəştə getməsindən asılı idi.

Qədim türk dünyagörüşü heç də asanlıqla transformasiya olmağa hazır deyildi.Mahmud Kaşqari yazırdı ki, "Türklər ulu Allaha sitayiş edəcək, lakin Tanrı məmnun qalmayacaq."Türk alimi İsmail Hami Danışmənd yazırdı: "İslamın başına keçmiş olan Oğuz-türk millətinin İslamı qəbul etməklə dini dəyişdi, amma iman və etiqadını dəyişmədi."[2]

Böyük çölün sakinləri oturaq həyat tərzi yaşayan türklərdən fərqli olaraq islamı yalnız məişət səviyyəsində qəbul edirdilər. Hətta XIX əsrə aid olan sənədlərdə türklərin islam ehkamiyyətinə indefferent yanaşmasından, yalnız adət və ənənələrin, ritualların yerinə yetirilməsində islam göstərişlərinə riayət etməsindən bəhs olunur.

XIX əsrdə yaşamış etnoqraf N.Zeland yazırdı ki, "Qırğızlar özlərini sünnü-müsəlman hesab etsələr də, dini ehkamiyyət məsələlərinə laqeyd yanaşır və bu məsələ ilə, ümumiyyətlə, maraqlanmırlar. Dini ayinlər müsəlman qaydası ilə yerinə yetirilsə də, dəqiqşiyinə xüsusi diqqət yetirilmir, əhali içərisində mollaların sayı çox azdır və onlar mükəmməl savada malik deyillər."[3]

"Divani lüğəti-it-türk" əsərində türk xalqlarının öz dini etiqadlarına, mifologiyalarına xüsusi həssas münasibət öz ifadəsini tapıb. Mahmud Kaşqari islam dininin göstərişlərinə uyğun tərbiyə, təhsil almış, ilahiyyat elminə yiyələnmiş, şəriət normalarına dəqiq riayət edən mömin bir müsəlman idi.Təsadüfi deyil ki, o, "Divani lüğəti-it-türk" əsərini Allaha və Məhəmməd peyğəmbərə münacat başlayaraq əsərin gələcək taleyinin uğurlu olması üçün dualar edir. Müsəlman Şərqində elmi-fəlsəfi traktatlar, divanlar, tarixi sələnamələr "hər cür fəzilət və gözəl əməllər sahibi olan Allaha həmd olsun!" fikir ilə başlanırdı. Türk İslam mədəniyyətinin görkəmli nümayəndələrindən hər biri bu ənənəyə sadiq qalmışdır. Mahmud Kaşqari əsərin giriş hissəsində məqsəd və məramını açıqlayaraq yazır: "Mənə əbədi şan-şöhrət, bitməz-tükənməz savab olsun deyə

[1] Nizami Cəfərov Türkologiyaya giriş. – Bakı: Elm və Təhsil, - 2016, - c. 77.

[2] İsmail Hami Danışmənd, Türklər niçin müslüma oldu. – İstanbul: - 1959, - s. 74-75

[3] Зеланд Н. Киргизы, Этнологический очерк, «Записки Западно-Сибирского отдела. ИРГО-1885, кн.7, в. 2, - с. 31-32.

Tanrıya sığınaraq bu kitabı yazdım və ona "Divani lüğəti-it-türk" adını verdim."[1]

Mahmud Kaşqari əsərində əks etdirdiyi məlumatların dəqiqliyinə, səliqəliyinə böyük məsuliyyətlə yanaşır, təhrif və yanlışların acı aqibətini qeyd edirdi. "Türk Xaqanlarından biri özündən neçə il əvvəl baş verən bir savaşı öyrənmək istəmiş, o savaşın tarixində yanılmışdır. Belə olduqda bu iş üçün ulusu bir gələş (müşavirə) toplanmış və qurultayda biz bu tarixdə yanıldıqsa , bizdən sonra gələnlər də yanılacaqlar. Elə isə biz indi göyün on iki bürcü və on iki ay miqdarında hər ilə birər ad qoyaq, hesabımızı bu illərin keçməsi ilə anlayaq. Bu aramızda unudulmaz bir xatirə olaraq qalsın" dedi. lus Xaqanın təklifini qəbul etdi."[2]

Burada gələcək nəsillərə ötürülən məlumatların dəqiqliyinin tədqiqatçı, səlnaməçi üçün nə qədər önməli olması önə çəkilir.

Mahmud Kaşqarinin yaradıcılığının ikinci dövrü Bağdad mühitindəki fəaliyyəti ilə əlaqədardır. Alimin ona dünya şöhrəti gətirmiş "Divani lüğəti-it-türk" əsəri də Bağdad dövrünə aiddir. Qaraxanilər dövlətindəki mühitdən ayrılıb Xilafətin paytaxtı Bağdad mühitinə yerləşən alim yeni siyasi, sosial, mədəni proseslərin içərisində bulundu. Bu Səlcuqlar hakimiyyətinin qüdrətinin artması, Xilafətin zəifləməsi fonunda böyük bir oyanış, İntibahın yaşandığı dövr idi. Tədqiqatçılar bu gün də Şərq, Müsəlman Renessansı kimi dəyərləndirilən tarixi mərhələnin mahiyyətinin, X-XIV əsrlərin özünəməxsusluğu, regionda baş verən hərbi-siyasi proseslər fonunda, müxtəlif mədəniyyətlərin qarşılaşması nəticəsində yaranan mədəni-intellektual mühitin xarakterini, güclü passionarlığının səbəb və mənbələrini araşdırmağa çalışırlar. Müsəlman mədəniyyətinin, fəlsəfi fikrin, fəlsəfi poeziyanın ən görkəmli nümayəndələri məhz bu tarixi zaman içərisində yaşayıb yaratmışlar. Mahmud Kaşqari bu proseslərin içərisində olmuş, bu mühitin yaratdığı imkanlardan bəhrələnmiş və Şərq intibahının görkəmli nümayəndələrindən birinə çevrilmişdir.

Bəşəriyyətin tarixi inkişaf prosesində Şərq və Qərb İntibahı adı qazanmış, biri-birinin davamı kimi tarix səhnəsinə daxil olmuş mərhələlər mövcuddur.

İntibah ümumdünya inkişaf prosesini əks etdirən kateqoriyadır və o məkan deyil, mahiyyət etibarı ilə mürəkkəb tarixi hadisədir. Şərti olaraq X-XIV əsrləri əhatə edən Şərq İntibahı Mərkəzi Asiyanın geniş hüdudlarını və hind-İran məkanını əhatə edərək, çoxsaylı xalqların yeni dünyagörüşünün, təfəkkür tərzinin, sosial-mədəni münasibətlər sisteminin ifadəsi kimi meydana çıxmışdır.

V.V.Bartold Şərq İntibahı məvhumunu "İslam dünyasının İntibahı" kimi təqdim olunması ideyasını irəli sürürdü. Bu İntibah dövrünü özündən əv-

[1] Mahmud Kaşqari. Divani lüğəti-türk. Tərcümə edən və nəşri hazırlayan Ramiz Əsgər. – Bakı: - 2006, - s. 55.

[2] Yenə orada, - s. 354.

vəlki və özündən sonrakı mərhələlərdən fərqləndirən cəhətlər – azad düşüncənin hüdudlarının genişlənməsi, yaradılışın, kainatın, insan təbiətinin sirlərinə marağın artması, özünü dərk etmiş şəxsiyyətin sosio-mədəni institutlar sisteminin mehvər oxuna çevrilməsi, aləmin insan varlığı prizmasından dəyərləndirilməsi, humanizm ideyalarının ali mənəvi dəyər kimi qəbul edilməsi idi. Şərqlə Qərb arasında mədəni-tarixi paralellər aparan akademik N.İ.Konrad X-XIV əsrləri İslam mədəniyyətinin oyanışı, yüksəliş dövrü kimi dəyərləndirərək, onu Qərb İntibahının sələfi adlandırırdı.[1]

Şərq İntibahının müqəddəm şərtlərini tədqiq edən M.Xayrullayev qeyd edirdi ki, Şərq İntibahı 2 mərhələyə bölünə bilər. Birinci mərhələ IX-XII əsrləri əhatə edir və bəşəriyyətin elm və mədəniyyət tarixinə böyük tövfələr vermiş Əl-Xarəzmi, Əhməd əl-Fərqani,Əbu-Abdulla Rudaki, Nizami Gəncəvi, Firdovsi, Yusif Balasaqunlu Mahmud Kaşqari məhz bu mərhələdə yazıb yaratmışdır. Bu mərhələdə yaranmış ənənələri Əli-Küşcu, Ülmuqbəy, Çami, Nəvai, Xondəmir kimi dahilər davam etdirmişdir.[2]

Şərq İntibahının görkəmli nümayəndələrinin,İslam sivilizasiyasının elmi-mədəni potensialının cəm olduğu, elmi fikrin, ədəbi düşüncənin, fəlsəfi məktəblərin, dini-fəlsəfi cərəyanların, fəaliyyət göstərdiyi Bağdad mühitinin cazibəsi uzun əsrlər ən məşhur alimləri bura cəlb edə bildi. Təbii ki, Mahmud Kaşqari də istisna deyildi. "Bu böyük mədəniyyət xadimləri yalnız ona görə İntibah dövrünə aid edilmir ki, antik dövrün dəyərlərini bərqərar etməyə müvəffəq olmuşlar, həm də ona görə ki, onlar öz dövrlərinin idealını ifadə edir, Orta əsr dünyagörüşü ilə bir araya sığmayan insana və həyata münasibətdə yeni baxış təqdim edirlər.Yeni baxışı ifadə etmək üçün uzaq və yaxın keçmişə, öz xalqının və digər xalqların tarixinə müraciət edirdilər."[3]

Mahmud Kaşqarinin nəhəng və çoxşaxəli irsi – Türkdilli xalqların əbədi mənəvi-fəlsəfi abidəsidir

Mahmud Kaşqarinin əsərlərində türklərin minilliklərə söykənən tarixi, türk sivilizasiyasının formalaşmasının müqəddəm şərtləri sayılan dövlətçilik ənənələri, hüquqi-siyasi baxışlar sistemi, şəhər mədəniyyəti, mədəni dəyərlər, xalqın qoruduğu adət və ənənələr incələnir. Bu təkcə türk dilçiliyinə həsr olunmuş monumental əsər deyil, həm də türk insanının şərəfinə ucaldılmış abidədir. Müəllif mənsub olduğu etnosun etnoqrafik, antropoloji, linqvistik xüsusiyyətlərinin formalaşması prosesini izləyərək türk xalqının etnogenezisinə dair mükəmməl tədqiqat təqdim edir.

""Biz" "ad" olaraq Türkün adını ulu Tanrı özü vermişdi" dedik. Çünki

[1] Bax: Конрад Н.И. Запад и Восток. – Москва: - 1966.

[2] Хайруллаев М.М.Фараби – крупнейший мыслитель Средневековья. – Ташкент: - 1973, - с. 100.

[3] Mahmud Kaşqari. Divani lüğəti-türk. Tərcümə edən və nəşri hazırlayan Ramiz Əsgər. – Bakı: - 2006, - s. 358.

bizə əhli - mübarəkdən şeyx və imam Əl-Hüseyn ibn Xələf əl Kaşqari dedi ona da ibn Əl- Fərqi adlı bir zat, ibn Əbi d Dünya adı ilə tanınan əş-Şeyx Əbu-Bəkr-əl Müfid əl Cərqərainin "Əl müəllif fi axir -əz Zaman" (Axır zamana dair) adlı kitabında peyğəmbərə (s.ə.s.) istinadən bir hədis rəvayət etmişdir. Həmin hədis belədir: "Ulu Tanrı mənim bir ordum var, ona "türk" adı vermişəm, onu Şərqdə yerləşdirmişəm. Bir millətə acığım tutsa türkləri onun üzərinə müsəlləh edərəm" deyir. Bu türklərin bütün insanlar üzərində üstünlüyüdür. Çünki adı onlara Tanrı vermişdir, onları yer üzünün ən yüksək yerində, havası ən təmiz ölkələrdə yerləşdirmiş və onlara öz ordum demişdir."[1]

Görkəmli alim Andreas Kaploni yazırdı ki, "Mahmud Kaşqarinin məqsədi dillərin təsviri ilə məhdudlaşmır, o öz əsərlərində bu dilinin öyrənilməsinin açarlarını təqdim edir. Mahmud Kaşqari öz doğma dilindən (xaqan, yaxud qaraxanilər-qədim uyğur-türk ədəbi dili) başqa digər dilləri də öyrənmək üçün oxucuya fonetik və morfoloji qaydaları təqdim edir, qaydalardan istisnaları göstərir bu və ya digər tayfaların istifadə etdikləri sözləri müqayisə edir. Mahmud Kaşqari yazırdı ki, "Bu qaydaları yaxşı mənimsəyən oxucu türkdilli tayfaların hər biri ilə ünsiyyət qura bilər." [2]

İyirmi iki türkcənin müqayisəli təhlilini verən əsərin yazılması zərurətindən, bu fundamental tədqiqatın ərsəyə gəlməsi ehtiyacından bəhs edən müəllif yazır: "Mən türklərin, türkmənlərin, oğuzların, çigilərin, yacmaların, qırğızların şəhərlərini və məskənlərini uzun illər başdan-başa dolaşdım, sözlərini topladım, müxtəlif sözlərin xüsusiyyətlərini öyrəndim, yaddaşıma həkk etdim. Mən bu işləri dil bilmədiyim üçün deyil, əksinə, bu dilləri ən kiçik fərqlərini göstərmək üçün elədim. Yoxsa ki, mən dil sahəsində onların ən bəlaqətlisi, ən aydın danışan, ağılca ən incəsi, sayca ən nəcabətlisi, savaşda ən məşhur nizəçisiyəm...Mən onları ən yaxşı şəkildə sıraladım, ən gözəl biçimdə tərtib elədim. Mənə əbədi şan-şöhrət, bitməz-tükənməz savab olsun deyə Tanrıya sığınaraq bu kitabı yazdım və ona "Divani-lüğəti-it-Türk" ("Türk dillərinin qamusu") adını verdim."[3]

Mahmud Kaşqarini bu əsəri yazana qədər türk xalqlarının dilinin tədqiqi və təhlilini əks etdirən əsər yox idi.

Düzdür, X əsrdə müsəlman alimi, ensiklopedisti, psixoterapiyaya dair əsərin müəllifi Abu-Zeyd əl-Bəlhinin (850-934) "Əşkam əl-Bulad" (ölkələrin təsnifatı) adlı əsərində xəzərlər, bulqarlar və digər türk tayfaları haqqında məlumatlar öz əksini tapıb.Əsərləri elmin müxtəlif sahələrini əhatə edən alimin 60 əsəri məlumdur. Bu əsər "Süvar əl akalım" (iqlimlərin xəritəsi), "Təqvim əl-buldan" (şəhərlərin bölgüsü)adı ilə məşhurdur. Əl-Kindinin tələbəsi olan Əl-

[1] Mahmud Kaşqari. Divani lüğəti-türk. Tərcümə edən və nəşri hazırlayan Ramiz Əsgər. – Bakı: - 2006, - s. 358.

[2] Andreas Kaplony. "Comparing al Kashgari's Map to His text on the visual Language, Purpose, and Transmission of Arabic-islamic Maps. – London: - 1997, - c. 145.

[3] Mahmud Kaşqari. "Divani-lüğəti-ət Türk". 4 cilddə, Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər. – Bakı: - 2006, - s. 55.

Bəihinin bu əsəri 920-921-ci illərdə yazdığı ehtimal olunur.Digər bir alim ərəb coğrafiyaçısı və səyyahı İbrahim əl-İstəhrinin (908-954) "Əl məqalik və-l-məmalik" (Ölkələr və yollar haqqında kitab) adlı kitabında müəllif İslam xilafətini 20 iqlimə bölür, şəhərlər, iqlim, təbii sərvətlər haqqında məlumat verir. Əsərin dəyərli məziyyətlərindən biri müəllifi Arran və Azərbaycan haqqında, əhalinin etnik tərkibi, həyat tərzi, dili, iqtisadi-sosial durumu, Bərdə, Marağa, Dərbənd şəhərlərinin təsvirini verməsidir. Əl-Məsudinin, Əl-Balazurinin, ibn-Fədlanın da əsərlərində Ərəb xilafətinə daxil olan türk dövlətləri, türk xalqlarına dair məlumatlar var.[1]

Akademik İ.Kraçkovski yazırdı ki, IX əsrə qədər müstəqil coğrafi araşdırmalar mövcud deyildi və yalnız bəzi filoloji ədəbiyyatlarda coğrafi məlumatlara rast gəlinirdi. XI əsrdən başlayaraq coğrafi atlaslar formalaşmağa başladı.[2]

Ərəb coğrafiyaçılarının topladığı məlumatlar əslində Ərəb xilafətinin yerlərdə idarəçilik sisteminin təkmilləşməsinə xidmət edən məlumatlar idi. Sistemli xarakter daşımayan bu məlumatlar türk xalqların tarixini, türk toplumlarının ortaq dilini, mədəniyyətini ədəbiləşdirmək məqsədi güdmürdü.

Məhz bu baxımdan Mahmud Kaşqarinin "Məndən əvvəl heç kimin tərtib etmədiyi bir düzülüş və heç kimin düşünməmiş olduğu bir tərtibatla işi açıqladım..."Mən türklərin hər boyuna məxsus köklərin və onlardan yaranan sözlərin xüsusiyyətlərini və harada işlənməsini izah edib göstərmək üçün əlahiddə bir yol tutdum" [3] fikrini bəyan etməsi onun haqlı iddiasıdır.

Müəllif Türk xalqlarının dünyagörüşünü, dünyaduyumunu tədqiq edərək XI əsrin mədəni mənzərəsini təsvir etməklə yanaşı türk insanının etnopsixoloji portretinin yaranmasına müvəffəq olmuşdu.

Əsərin ən qiymətli məziyyətlərindən biri də Mahmud Kaşqarinin bu əsərlə ərəb-fars dillərinin zənginliyi ilə müqayisədə türk dilinin bərabərhüquqlu, rəqabətə davamlı, zəngin dil olduğunu sübut etməyə çalışmışmasıdır. Ərəb dilinin rəsmi dil kimi yüksək statusa malik olduğu bir dövrdə Abbasilər xəlifəsinə təqdim olunan əsərin türk xalqlarının mədəni irsinə, türk dilinin zərafətinə, türk xalqlarının hərbi şücaətinə həsr olunması böyük elmi cəsarətin ifadəsi idi.

Bir cəhəti də nəzərdən qaçırmaq olmaz ki, "Divani-lüğəti-it-Türk" əsərinin yazıldığı dövrdə Abbasilər Xilafətində türk hərbiçilərinin təsir dairəsinin genişlənməsi, dövlət idarəçiliyi sistemində türk hərbi aristokratiya nümayəndələrinin rolunun artması dövrü idi.

Hələ VIII-X əsrlərdə Ərəb xəlifələrinin xilafətin idarə olunmasında türk

---

[1] Bax: Крачковский И.Арабская географическая литература; M.N.Vəlixanlı, IX-XII əsr Qərb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. – Bakı: - 1974.

[2] Крачковский И. Арабская географическая литература. – Москва: - 1957, - с. 20.

[3] Mahmud Kaşqari. "Divani-lüğəti-ət Türk". 4 cilddə, Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər. – Bakı: Ozan, - 2006, - s. 58.

hərbiçilərindən istifadə etməsi, onların cəsarət və sədaqətinin xüsusi dəyərləndirməsi çoxsaylı ərəb mənbələrində əksini tapır.Orta əsr ərəb bədii nəsrinin (ədəbə) banisi Abu Osman Əmr ibn Bəxr əl-Cahiz "Türklərin fəziləti"adlı əsərində yazırdı: "Türklər yaltaqlanmaq, münafiqunluq, ikiüzlülük, riyakarlıq, böhtanatma, dostlarına qarşı paxıllıq və fənalıq kimi xüsiyyətlərindən uzaqdır. Başqalarının malını hiylə ilə ələ keçirtməyi özlərinə halal saymazlar.Türklər ərəblərdən sonra vətən sevgisinə ən çox sahib olan millətdir. Çünki onların vücudlarının tərkibi də, təbiətlərində başqa millətlərin sahib olmadıqları dərəcədə məmləkətlərinə bağlılıq, vətənin torpağını və suyunu üstün tutmaq xüsusiyyətləri var."[1]

Böyük Səlcuq dövlətinin yaranması və Abbasi xəlifələrinin özündən asılı salmasından sonra türklərin mövqeyi daha da gücləndi.

Müəllif yazırdı ki, "Kitabda türklərin dünyagörüşlərini və biliklərini göstərmək üçün onların şeirlərindən, qayğılı və sevincli günlərində yüksək düşüncələr ifadə edən sözlərindən misallar verdim. Bunlar nəsillərdən-nəsillərə gələrək keçmişdir. Bütün bunlarla yanaşı bu kitab saflıqda son həddə, gözəllikdə son mərtəbəyə çatdı. Könül verdiyim bu işdə ulu Tanrıdan yardım dilədim."[2]

Əsərin nə zaman yazılması haqqında çoxsaylı ehtimallar mövcuddur. Qəbul edilmiş versiyaya əsasən əsər 1072-1074 illər ərzində yazılmış, dörd dəfə üzü köçürüldükdən sonra tam tərtib olunmuşdu və təqdimata hazırlanmışdır. Ənənəyə əsasən ən dəyərli əsərlər xəlifələrə həsr olunurdu. Müəllif özü təsdiq edir ki, "Divani-lüğəti-it-Türk" Abbasi xəlifəsi əl Qaim Biəmrullaha ərməğan edilməli idi. Lakin xəlifənin gözlənilməz ölümü və müqtədiyənin hakimiyyətə gəlməsi ilə əsər yeni xəlifəyə təqdim olundu. Tədqiqatçıları maraqlandıran digər bir məsələ Səlcuq hökmdarının böyük qələbələrinə şahid olan müəllifin əsərinin Səlcuq hökmdarlarına deyil, zəifləməsi, tənəzzülə gedən xilafətin hökmdarına ithaf olunmasıdır. Bu sual artıq alternativ tarix sferasına aid məsələdir.

Bu gün dünyanın bir çox xalqlarının dilinə tərcümə olnumuş bu əsərin azərbaycan dilinə ilk tərcüməsi XX əsrin 30 illərinə təsadüf edir. Türk-Azərbaycan dilçiliyinin bir elm sahəsi kimi formalaşmasında böyük əməyi olmuş, görkəmli türkoloq Xalid Səid Xocayev (1893-1937) dünya türkologiya tarixində ilk dəfə Mahmud Kaşqarinin "Divani-lüğəti-it-Türk" əsərini azərbaycan dilinə tərcümə etmişdir. Türk dillərinin qrammatikasına, sintaksisinə dair çoxsaylı əsərlərin müəllifi olan Xalid Səid Xocayev yaradıcılığında Türk xalqlarının tarixinin, mədəni irsinin tədqiqinə, türk dilinin xüsusiyyətlərinə, ümumtürk milli dəyərlərinin qorunmasına ciddi tədqiqatlar həsr olunub. O, "Çağatay ədəbiyyatına dair mühazirələr", "Orxon yazılarının tədqiqinin şərhi", "Azər-

[1] Əl-Cahiz. Türklərin fəziləti.

[2] Mahmud Kaşqari. "Divani-lüğəti-ət Türk". 4 cilddə, Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər. – Bakı: Ozan, - 2006, - s. 58.

baycan dilinin müfəssəl stilistikası", "İran (fars) dilinin qrammatikası", 1926-cı ildə türk dilində Bakıda nəşr olunmuş "Osmanlı, özbək və qazax dillərinin müqayisəli qrammatikası" və s. əsərlərin müəllifidir. Bütün bunlarla yanaşı onun elmi yaradıcılığında "Divani-lüğəti-it-Türk" əsərinin tərcüməsi xüsusi yer tutur.

Onun Mahmud Kaşqari irsinə olan böyük ehtiram bu möhtəşəm əsərin tədqiqi və təbliğini vətəndaş alim borcu bilərək geniş auditoriyaya çatdırmaq istəyi alimin həyatında acı nəticələrə yol açdı.

XX əsrin 30-cu illərindən başlayaraq X.S.Xocayev haqqında məlumatlar, onun yaradıcılığını əks etdirən sənədlər sanki xüsusi canfəşanlıqla məhv edilməyə çalışılıb. Arxiv sənədləri məhv edilib, əsərlərinin böyük əksəriyyəti itirilib, adının türkologiya elmi sahəsində olan alimlərin sırasında olmaması üçün cəhdlər baş tutub. Lakin məlum aforizmə görə "Əlyazmalar yanmır". Ölkəmizdə müstəqillik əldə edildikdən sonra elmi həqiqəti aşkara çıxarmağa cəhd edən araşdırmaçılar zərrə-zərrə olsa da, tarixi gerçəkliyi bərpa etməyə müvəffəq olaraq, X.S.Xocayevin həyat və elmi fəaliyyətini obyektiv şəkildə ictimaiyyətə çatdırmağa nail olur.[1]

X.S.Xocayev 1893-cü ildə Daşkəndin 25 km yerləşən Kaş-Kurqan qəsəbəsində dünyaya gəlmişdir.İlk təhsilini Daşkənddə mədrəsədə almış, Şərq dillərinə mükəmməl yiyələnmiş, 18 yaşına çatanda isə Türkiyəyə gedərək İstanbul Universitetinə daxil olmuşdur. Çox guman ki, XX əsrin əvvəllərində Türkiyədə yaranmış siyasi hərəkatlar, gənc türk təşkilatları haqqında olan məlumatlar X.S.Xocayevin sonralar ittiham olunmasında mühüm rol oynamışdır.

Onun Türkiyədə təhsil aldığı dövr 1911-1918 illəri əhatə edir.1918-ci ildə təhsilini bitirdikdən sonra o, Özbəkistana deyil, Nuru paşanın rəhbərlik etdiyi türk ordusunun tərkibində Azərbaycana gəlir. Türk ordusu Azərbaycanı tərk etdikdən sonra, Gəncədə qalır, müəllimlik edir və sonra Bakıya dönür.

Həbs olunarkən işgəncələr altında verdiyi ifadədə o, 1918-ci ildə İstanbul Universitetinin bir qrup tələbəsi ilə Azərbaycana pantürkist ideyaları yaymaq üçün gəldiyini etiraf edir.

1922-ci ildən başlayaraq Azərbaycanın bir sıra ali məktəblərində, Azərbaycan Dövlət Universitetində, Sənaye Universitetində, Pedaqoji Universitetində pedaqoji fəaliyyətlə məşğul olur, yeni, latın əlifbanın qəbul edilməsi ilə əlaqədar müraciətlər edir. 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultay zamanı 3 dəfə çıxış edərək türkdilli xalqların latın qrafikasına keçməsinin Orta türk dilinin yaranmasındakı əhəmiyyətini əsaslandırmağa çalışırdı.

XX əsrin 30-cu illərin ortalarında SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında Mahmud Kaşqarinin "Divani-lüğəti-it-Türk" əsərinin azər-

[1] Bünyadov Z. Qırmızı terror. – Bakı: - 2022; C.Qasımov. Siyasi repressiya: həyatda və ədəbiyyatda. – Bakı: - 2020; Turan A. Xalid Səid Xocayev, şəhid türkşünas. – Bakı: - 2009; Ашнин Ф.Д., Алпатов Ф.Д., Насылов Д.М. Репрессированная тюркология. – Москва: - 2002.

baycan dilinə tərcümə etmək məqsədilə xüsusi komissiya yaradılır. Komissiya artıq özünü görkəmli türkşünas kimi təsdiq etmiş X.S.Xocayevin tərcümə etməsi təsadüfi deyildi.

Böyük türk təəsübkeşliyi, türk birliyinin yaranmasına səsləyən çıxışları az keçmir təhlükəsizlik orqanlarının diqqətini cəlb edir. Siyasi rejimin qəzəbinə tuş gəlməsinin ən böyük səbəbi isə X.S.Xocayevin "Divani-lüğəti-it-Türk" əsərini tərcümə etmək kimi missiyanı yerinə yetirməsi idi.

"Divani-lüğəti-it-Türk" əsəri kimi möhtəşəm abidənin yazıldığı dövrdən 860 il sonra Azərbaycan dilinə tərcümə etmək kimi böyük vəzifəni yerinə yetirmək, türkdilli xalqların əzəmətli keçmişini, zəngin mədəniyyətini dünyaya bəyan etmək istəyi X.S.Xocayevə həyatı bahasına başa gəldi.

X.S.Xocayevin istintaq işi ili tanış olan, ona göstərilən təzyiq və işgəncələrdən bəhs edən araşdırmaçı F.D.Aşnin yazır: "X.S.Xocayevin fəaliyyəti ilə bağlı tərtib olunmuş 12493 nömrəli qovluğun 18-ci səhifəsində belə bir qeyd var: "Mən öz əsərlərimdə və tərcümə etdiyim "Divani-lüğəti-it-Türk" əsərimdə pantürkizm ideyalarının təbliği ilə məşğul olmuşam." Digər bir repressiya qurbanı Q.S.Qubaydulini də "Divani-lüğəti-it-Türk" əsərində türk xalqlarının etnoqrafiyasına və linqvistikasına dair konsepsiya mövcud olduğu haqqında ifadə verməyə məcbur etmişdilər."[1]

1937-ci il iyul ayının 3-də X.S.Xocayev pantürkist-millətçi təşkilatın üzvü olmaqda ittiham edilərək həbs edildi və oktyabr ayının 12-də güllələndi. Alimin bir çox əsərləri, "Divani-lüğəti-it-Türk" əsərinin 1800 səhifəlik əlyazması, "Orxon kitabələrinin izahlı tədqiqi", "Çağatay ədəbiyyatı haqqında qiymətli araşdırmalar" və s. HKVD tərəfindən müsadirə olundu. SSRİ Ali Məhkəməsinin 1957-ci il 16 may tarixli qərarı ilə "fəaliyyətində cəsusluq əlaməti olmadığına görə bəraət alan" alim Azərbaycanda siyasi repressiya qurbanı olan böyük alimlərinin, şairlərinin, siyasətçilərinin qismət payını bölüşdü.

Siyasi repressiyaların işgəncələrinə məruz qalmış, milli mədəniyyətimizin, elmimizin azad düşüncə sahibi olan mücahidlərimizin həyatı , yaradıcılığı, milli oyanışa xidmət edən tarixi, fəlsəfi, ədəbi irsi elmi-nəzəri fikrin aktual problemlərinə çevrilərək tarixi ədalətin bərpasına xidmət etməlidir.

İkinci dəfə əsəri Azərbaycan dilinə tərcümə edib, elmi ictimaiyyətə təqdim etməklə böyük bir missiyanı yerinə yetirən proffesor Ramiz Əsgərin böyük zəhməti danılmazdır.

Əsərin azərbaycanca nəşrinə ön söz yazan Ramiz Əsgər Mahmud Kaşqarinin irsinə müraciətinin səbəblərini belə əsaslandırır: "Divani-lüğəti-it-Türk"ün ən mühüm özəlliyi dünya dilçiliyi tarixində müqayisəli metodun əsasını qoyması, türk dillərinin müqayisəli qrammatikasının yaratması və zəngin türk dilini köklü ərəb dili ilə qarşılaşdırmaq sürətilə bu iki dilin müqayisəsini aparmasıdır. Dilin müqayisəsi sahəsində Mahmud Kaşqari öz böyük xələfi ,

[1] Ашнин Ф.Д., Алпатов Ф.Д., Насылов Д.М. Репрессированная тюркология. – Москва: - 2002, - с. 104.

“Mühakimət ül-Lüğəteyn” əsərində türk dilinin fars dili ilə müqayisəsini verən dahi mütəfəkkir və şair Əlişir Nəvaini dörd əsr, F.Borr,Y.Qrimmi, B.Humbold, R.Pask kimi məşhur dilçiləri isə təqribən səkkiz əsr qabaqlamışdı.Bu əsər ərəblərə türk dilini öyrənmək, xilafətdə və bütün dünyada türklərin getdikcə artan siyasi, hərbi üstünlüklüyünü həm də mədəniyyət sahəsində taclandırmaq məqsədi ilə yazılmışdır.”[1]

Zaman keçəcək, nəsillər dəyişəcək, “Divani-lüğəti-it-Türk” əsəri Türk əzəmətinin simvolu kimi qətiyyətlə gələcəyə doğru addımlayacaq.

ƏDƏBİYYAT

1. Turan A. Xalid Səid Xocayev, şəhid türkşünas. - Bakı, 2009, - 446 s.
2. Mazaheri A. Orta çağda müslümanların yaşayışları. – İstanbul: Varlıq Yayın Evi, 1972, - 400 s.
3. Kaplony A. Comparing al Kashgari's Map to His text on the visual Language, Purpose, and Transmission of Arabic-islamic Maps. - London, 1997, - 145 p.
4. Vəlixanlı M.N. IX-XII əsr Qərb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. - Bakı, 1974, - 300 s.
5. Qasımov C. Siyasi repressiya: həyatda və ədəbiyyatda. – Bakı: Elm və Təhsil, 2020, - 508 s.
6. Nəcəf Ə. Orta əsrlərdə Azərbaycanda təhsil anlayışı, strukturu, metodologiyası və tədris vəsaitləri (X-XV əsrlər) // Azərbaycan məktəbi. – Bakı, 2018, no 2, - 109 s.
7. Muxtarova Ə. Türk xalqlarının tarixi. – Bakı: Adiloğlu, 2013, - 446 s.
8. Hikmet Tapun.Türklerin dini tarihcisi. – İstanbul, 1978, - 250 s.
9. İslam ansiklopedisi (Karahanliler maddesi) 6 c. - İstanbul, 1968, - 540 s.
10. Кормушин Н.В. Введение //Махмуд аль-Кашгари. Диван лугат-ит-тюрк (Свод тюркских слов). - Москва: Восточная литература, 2010, - 385 с.
11. İsmail Hami Danışmənd. Türklər niçin müslüma oldu. - İstanbul, 1959, - 220 s.
12. Mahmud Kaşqari. “Divani-lüğəti-ət Türk”. 4 cilddə, Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər. – Bakı: Ozan, 2006.
13. Cəfərov N. Türkologiyaya giriş. – Bakı: Elm və Təhsil, 2016, - 247 c.
14. Bünyadov Z. Qırmızı terror. – Bakı: Azırbaycan dövlət nəşriyyatı, 1993, - 331 s.
15. Ашнин Ф.Д., Алпатов Ф.Д., Насылов Д.М. Репрессированная тюркология. – Москва: - 2002, 450 с.
16. Бартольд В.В. Очерки истории Семиречья. Сочинения. – Москва, 1963, т. 2, часть 1, - 160 с.
17. Березиков Е.Б. Святые Ислама. – Казань: Татарское книжное издательство, 1996, - 160 с.
18. Блок М. Апология истории или Ремесло историка. – Москва: - 1973, - с. 19.
19. Зеланд Н. Киргизы, Этнологический очерк. // Записки Западно-Сибирского отдела. - ИРГО-1885, кн.7, в. 2, - 250 с.
20. Калбердиев А. Махмуд Кашгари и теологическая концепция бога в “диван лугат ат-тюрк”//https://www.nur.kz/family/school/1602452-kto-takie-kazakhi-otkuda-oni-poyavilis/
21. Кононов А.Н. Махмуд Кашгари и его “Дивани лугати-ит-тюрк” / Советская тюркология, 1972, N-2.
22. Конрад Н.И. Запад и Восток. – Москва: Наука, - 1972, - 496 с.
23. Крачковский И. Арабская географическая литература. – Москва-Ленинград: АН СССР, 1957, - 965 с.
24. Пылев А.И. Суфизм у среднеазиатских тюрко в Караханидский период (XI-XII): основные черты и крупнейшие представители. Вестник СП(Б)ГУюсер N-13, 2012.
25. Хайруллаев М.М.Фараби – крупнейший мыслитель Средневековья. – Ташкент: - 1973, - 279 с.

[1] Mahmud Qaşqari.Divani lüğəti-türk.Tərcümə edən və nəşri hazırlayan Ramiz Əsgər. – Bakı: Ozan, - 2006, - s. 19.

26. Ланглау Ш.В., Шенобос Ш. Введение в изучение истории. - Москва, 1899.

НАСЛЕДИЕ МАХМУДА КАШГАРИ КАК ИСТОРИКО-ФИЛОСОФСКИЙ И КУЛЬТУРНЫЙ ПАМЯТНИК ТЮРКОЯЗЫЧНЫХ НАРОДОВ

Р.Н.АСЛАНОВА

РЕЗЮМЕ

Национальное возрождение тюркоязычных стран и обновление его духовной жизни немыслимы без глубокого изучения л освоения историко-философского и культурного наследия прошлого, которое в настоящее столетие приобретает новый смысл, иное значение.

Особенно это касается философской мысли, поскольку она составляет глубинные пласты духовного, идейного наследия народа. Как отмечали тюркские мыслители, без исторической преемственности не может продолжаться социальная и культурная жизнь общества.

Интерес к истории историко-философской мысли тюркских народов с древнейших времен до нашего времени определяется не только конкретными научно-теоретическими обстоятельствами,но и вызовами глобальной цивилизации и развития национальных государств.

Махмуд Кашгари, его многогранное творчество, историко-философское наследие и этические учения занимают в вышеуказанном аспекте несравненное место.

Ключевые слова: Махмуд Кашгари, историко-философские взгляды, духовное и этическое наследие, "Диван лугат ат-турк", памятник тюркской культуры

THE LEGACY OF MAHMUD KASHGARI AS A HISTORICAL, PHILOSOPHICAL AND CULTURAL MONUMENT OF THE TURKIC-SPEAKING PEOPLES

R.N.ASLANOVA

SUMMARY

The national revival of the Turkic-speaking countries and the renewal of its spiritual life are unthinkable without a deep study and development of the historical, philosophical and cultural heritage of the past, which in the present century takes on a new meaning, a different meaning.

This is especially true of philosophical thought, since it constitutes the deep layers of the spiritual, ideological heritage of the people. As Turkic thinkers noted, the social and cultural life of society cannot continue without historical continuity.

Interest in the history of the historical and philosophical thought of the Turkic peoples from ancient times to our time is determined not only by specific scientific and theoretical circumstances, but also by the challenges of global civilization and the development of national states.

Mahmud Kashgari, his multifaceted creativity, historical and philosophical heritage and ethical teachings have an incomparable outstanding place in the above-mentioned aspect.

Keywords: Mahmud Kashgari, historical-philosophical views, spiritual and ethical heritage, “Divan-Lüğət ət-Türk”, monument of Turkic culture**.**